# SABİR ŞİRVANIN "SÖZ ÖMRÜ"



**Şəddat CƏFƏROV**
***"Bakı mətbəəsi"nin direktoru, Respublikanın ilk poliqrafçı alimi, iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü***

Mən Qarabağ bölgəsindən olan şairlərin yaradıcılığını həmişə maraqla izləyirəm. Çünki hər hansı bir yerin, yurdun təbiətini şairlər qədər həssaslıqla vəsf edən, təsvirə gətirən, yaddaşlara yazan başqa sənət növü tanımıram. Mənim düşüncəmə görə Qarabağ şairləri qədər də Qarabağı bütün reallıqları ilə ən nadir, ən görkəzmə təbiətlərinə görə təsvirə gətirən başqa müəlliflər ola bilməz.

İş elə gətirib ki, naşirlik fəaliyyətim məni Qarabağ bölgəsindən olan söz-sənət adamlarına da bağlayıb. Onların əlyazma kitabları əlimə gəldikcə, o əlyazmaları vərəqlədikcə xəyalımdan acı təəssüf qarışıq duyğular keçib. Axı iş elə gətirib ki, mən müvafiq imkanlarıma uyğun olsa da, Qarabağın adlı-sanlı yerlərində olmamışam. İndi mənim üçün çox ağır bir nisgildir ki, bir tərəfi Şuşa, bir tərəfi Cəbrayıl, Zəngilan, Qubadlı, lap elə Laçın, Kəlbəcər... kimi yerlərin dağlarını, düzlərini gəzməmişəm. O yerlərin can dərmanı olan bulaqlarının suyundan içməmişəm. Bu o demək deyil ki, mən həmin yerləri arzulamamışam. Həyatımdan yazılan kitabların oxucuları yaxşı bilir ki, ömrümün bu günə qədərki çağları, demək olar ki, öz ixtiyarımda olmayıb. Dövlət tapşırıqları, vəzifə missiyası mənə imkan verməyib ki, adi hər bir vətəndaş üçün haqqı olan məzuniyyəti qəlbimin istəyincə öz arzuma uyğun yerlərdə keçirim. Az-çox belə imkan olanda dədəbaba yurduma üz tuturdum.

Qarabağın işğalı... bu çox böyük, az qala qaçılmaz bir faciə kimi xalqımızın taleyinə yazıldı. Qarabağ işğal olunandan sonra mən Qarabağı ürəyimcə gəzmədiyimə görə, o yerləri gözü dolusu görmədiyimə görə özümü qınadım. Amma əl hara çatardı. Olan olmuşdu.

Bəli, tarixin elə bir haqq tərəzisi var ki, o müvafiq zaman gələndə həqiqətləri öz yerinə qaytarır. Belə bir zaman 2020-ci ilin noyabrın 8-də ömrümüzə qismət oldu. Azərbaycanın *"dəmir yumruğ"*u qüdrətli sərkərdənin siyasi iradəsi və komandanlıq gücü ilə həqiqəti dünyaya diktə etdi.

Axır ki, Azərbaycan özünün mənəvi qüdrəti olaraq Şuşasına sahib oldu. Kəlbəcərini, Laçınını, Zəngilanını, Qubadlısını, Cəbrayılını azad elədi. Hadrutdan düşmənin ayağını kəsdi. Qədim Qarabulaqdan - Füzulidən düşməni qovub çıxardı. Ağdama yol açdı. Şuşamızı azad elədi. Mən açığı, yaşımın bu çağında ikiqat sevindim. Birincisi, vətənimin torpaqları düşməndən azad olundu, ikincisi, öz-özümə düşündüm ki, bu Allahımın mənə verdiyi möhlətdir ki, mən də axır ki, vətənimin bağrı olan Qarabağımızı başdanbaşa gəzərəm, Şuşamızı ziyarət edərəm. Kitablarını çap etdiyim şairlərimizin yerini, yurdunu görərəm.

Çox böyük həvəs və istəklə Qarabağ şairlərinin yaradıcılıq örnəklərini çap edirəm. Onlardan biri də Sabir Şirvandır. Əlbəttə, mən Sabir Şirvanı yaxşı tanımırdım. Onun haqqında mənə dostum Əli Rza Xələfli telefon zəngimlə məlumat verdi. Əsli, nəsli haqqında danışdı. Heç qohumluğunu da gizlətmədi. Ən başlıcası, sözün həqiqi mənasında istedadlı bir şair olduğunu da qeyd etdi. Mən də Sabir Şirvanın kitabını vərəqlədim, bir neçə şeirini oxudum. Bir sözlə, Sabir Şirvanın şeirlər kitabını çap etdim. Bildiyimə görə ədəbi tənqidlə onun şeirlər kitabını maraqla qarşıladı. Mətbuatda yazılar getdi. Hətta bir qədər incikliyim də oldu. Həmin yazılarda kitabın nəşr, poliqrafiya dəyərindən bir kəlmə də yazılmamışdı. Amma Sabir Şirvan, görünür, onun üçün görülən işdən razı qalmışdı, ona görə də yenidən bizə tərəf qayıtdı və *"Söz ömrü"* adlı kitabını gətirdi.

Şair azaddır. O, ən müxtəlif janrlarda, ən müxtəlif ölçülərdə öz fikrini yaza bilər. Bəzən bir şair nəsrə keçər, başqa bir nasir şeirə keçər. Görkəmli sənətkarımız Mirzə İbrahimov ömrünün son çağlarında çox dəyərli şeirlər yazırdı. Sözüm bunda deyil. Mən Sabir Şirvanın yeni şeirlər kitabını gözləyirdim, ancaq onun gətirdiyi kitabın fərqli bir janrda olduğunu görəndə heç də təəccüblənmədim. Nə olar ki, şair indi də öz hisslərini nəsrlə yazıya gətirib.

Bir sözlə, Sabir Şirvanın *"Söz ömrü"* kitabını nəşrə hazırladıq. Əvvəlcə onun üçün annotasiya qeydlərini yazıya gətirmək mənim işim idi: *"Söz ömrü" tanınmış şair Sabir Şirvanın dəyərli oxucularla sayca altıncı görüşüdür. Bu kitabda S.Şirvan öz ömür yolunu tarixləşdirib. Əsasən xatirələrin yer aldığı topluda şairin həyatı boyunca rastlaşdığı ən müxtəlif insanlarla görüşləri, çevrəsindəki adamlarla şəxsi münasibətləri, quruculardan və rəhbərlərindən biri olduğu Dirili Qurbani Məclisi haqqında maraqlı məlumatlar, eləcə də özünün bədii yaradıcılığından nümunələr, qələm dostlarının yaradıcılığına verdiyi dəyərli fikirlər əksini tapmışdır. Kitabda həmçinin, müəllifin 30 ilə yaxın bir dövrdə Qarabağımızın erməni işğalçıları tərəfindən zəbt edilməsi, əzəli torpaqlarımızın Azərbaycan Ordusunun yenilməz gücü sayəsində yenidən azadlığına qovuşması barədə qələmə aldığı müfəssəl məlumatlar verilmişdir. İnanırıq ki, şairin indiyədək çap olunmuş bədii əsərləri kimi, bu kitabı da oxucularının marağına səbəb olacaq və sevilə-sevilə oxunacaqdır".* Zənnimcə, bu qeydlər Sabir Şirvanın yeni kitabı haqqında kifayət qədər məlumat verir. Ancaq iş bununla bitmir. Axı mən nəşr üçün götürdüyüm kitabların ən müxtəlif cəhətdən məziyyətləri ilə maraqlanıram. Bəzən kitabın mahiyyətini anlamaq üçün redaktorun, rəyçinin sözlərini də axıracan izləyirəm. Bu da mənə imkan verir ki, nəşr üçün seçdiyim kitabın cəmiyyət üçün, insanlar üçün nə dərəcədə dəyərli olduğunu görüm, anlayım. Sabir Şirvanın *"Söz ömrü"* kitabı mənim diqqətimi xüsusi cəlb etdi. Ona görə ki, bu kitaba *"Ön söz"*ü mənim dostum Əli Rza Xələfli yazmışdı. Mən həmin *"Ön söz"*ü oxuyanda elə bil ki, həm Əli Rza Xələfli ilə, həm də kitabın müəllifi ilə birgə Qarabağın ən gözəl guşəsi olan Cəbrayıla səyahət etdim. Sanki Sabir Şirvanı da elə Əli Rza Xələflinin *"Daha üstün ev: sözün evi"* adlı ilk qeydlərindən tanıdım:

*"Ötən yay Sabir Şirvan Qarabağın işğaldan azad olunan kəndinə - Xələfliyə getmişdi. Özünün dediyinə görə cəngəlliklər basmış yolu, izi birtəhər keçib Şirvanlı bulağına çatmışdı. Dədə-baba evləri də elə Şirvanlı bulağına çatmamış, yolun üstündə idi. Yenə özünün dediyinə görə heç öz həyətlərinə də cəngəlliyi basıb keçə bilməmişdi. Qıraqdan baxa bilmişdi evlərinin yerinə. Sabir Şirvanın atası məşhur dülgər idi: Əvəz Qaytaran oğlu. Çox evlər tikmişdi. 8 övladı (4 qız, 4 oğul) halal zəhməti ilə böyütmüşdü. Ailəni təndürüst saxlamaqla bahəm özünə də lap dədə-baba dili ilə desək, bir saray qurmuşdu. Bağı-bağatı, çağlayan suyu, gülü, gülzarı ilə birgə..."*. Nə qədər konkret, aydın müşahidələr əsasında yazılıb. Hətta müəllif haqqında uzun-uzadı məlumatlara yer qoymadan biz elə bu qısa mətnin içərisində biz Sabir Şirvanın hansı mühitdə necə böyüdüyünü də görmək imkanı qazanırıq.

Hər bir insanın şəxsiyyət kimi formalaşması, onun el-oba içində tanınması üçün onun kimliyi ancaq təbiətində gedən dəyişilmələrlə müəyyənləşir. Sabir də şair kimi öz yerinə, yurduna bağlılığı ilə görünüb. Mən bunu çox yüksək dəyərləndirirəm. Əgər Sabir təbiət etibarı ilə yerinə, yurduna bağlı olmasaydı, heç *"Söz ömrü"* adlı bu kitabı da yarada bilməzdi. Amma bir məsələni də qeyd etmək yerinə düşər. İstedadı olan o qədər gənclər var ki, iradələrinin zəifliyinə görə formalaşa bilmir, özlərini ifadə etmək imkanlarını itirirlər. Amma Sabir Şirvan hələ ilk gəncliyindən yerinə, yurduna bağlı olub. Onun bu keyfiyyətini, təbiətinin bu dəyərli cəhətini *"Ön söz"*ün müəllifi ardıcıl olaraq yazısına gətirir: *"Sabir bürokratik maneələri birtəhər keçib kəndə gedə bilmişdi. Yəqin ki, qıraqdan-qırağa xaraba qalmış evlərini, viranə qalmış bağlarını da görmüşdü. Təsəvvür etmək heç çətin də deyil, Sabir o yerdə qıraqdan durub hansı hisslərlə diş-diş ağaran yurd yerlərinə baxmışdı. İllah da ki, şair olasan. Yanğılar içində közərə-közərə sözə çevrilə. Əmisi oğlu Qaytaranın Şirvanlı bulağının üstündə qara zurnada ifa etdiyi "Çoban-Bayatı"nı dinlədikcə onun qəlbindən hansı hisslərin keçdiyini təsəvvür etmək, bəlkə də axıracan təsəvvür etmək heç mümkün də deyil. İnsanın yurdu (böyük anlamda vətəni) onun yaddaşıdır. Sabir də yaddaşının görüşünə getmişdi. Yaddaş isə insanın varlığını, kimliyini göstərən ən ümdə keyfiyyətdir. Bəlkə də başqaları buna əlamət deyərdi, ancaq, məncə, məzmunun dəyəri yaddaşla ölçülürsə, onda yaddaş elə keyfiyyət anlamında qavranılmalıdır. Hər halda Sabir Şirvanı közərən yaddaş duyğuları çəkib aparmışdı yurda. Doğma kəndini, doğulub böyüdüyü yeri, yurdu tərənnüm edən şeir oxuyurdu. Bulaq onun zümzüməsinə qulaq kəsilmişdi, axı bulaq özü batmışdı. Bəlkə də bulaq özü də Sabirin şeirlə gətirdiyi yaddaşın gücünə yuxudan oyanacaq".* Təsirli lövhələrdir, yaddan çıxmayan yurd, yaddaş ağrısı çəkməyən hər kəs üçün ibrətli məqamlardır.

Sabir Şirvanın kitabına yazılmış *"Ön söz"*ün bu məqamlarını izlədikcə xəyalımdan necə təkrarsız mənzərələr keçir. Elə bu andaca yazını yarımçıq qoyub atamın, babamın doğulduğu yerlərə getmək istəyirəm. Oradakı hər bir bulağı, dərəni, çayı, qayanı ziyarət etmək istəyirəm.

Düşünürəm ki, hər bir sənətkar üçün onun yaratdığı əsərin dəyəri oxucunun yaddaşında düşüncəsində unudulmaqda olan xatirələri oyatmaqdır. Mənim də yaddaşımda Sabir Şirvanın kitabını vərəqlədikcə və elə bu kitaba yazılmış *"Ön söz"*ü oxuduqca doğma yerlərimiz, uşaqlığımın keçdiyi xatirə lövhəli yerlər gözlərimin önündə canlanır.

Çox təsirli məqamlar var. Deməli, şair öz yurduna gedir. Doğma yerləri ziyarət edir. Ona doğma olan bir başqa sənətkar da onu müşayiət edir. Sən demə, bu sənətkar da qara zurna ifaçısıdır. İndi təsəvvür edin, xaraba yerləri gəzəsən, dağılmış evləri, yurdları öz gözlərinlə görəsən və orada qara zurnanın ifasında həsrətli məqamları gözlərinin önündə canlandırasan. *"Ön söz"*ün müəllifi yazır: *"Çoban-Bayatı" Yavər - Qaytaranın qara zurnasının qara nəfəsi ilə çağlayırdı. Mənə elə gəlirdi ki, baxdığım kiçik zamanla məhdudlaşan video-lentdə görünən mənzərənin hamısı ağlayırdı. Yəqin ki, Sabir Şirvan xaraba qalmış yurdun necə abad olacağını, bu evin - onun doğulub-böyüdüyü yurdun təzədən ata yadigarı kimi Xələflisiz - Şirvanlısız böyüyən övladlarına necə qaytarılacağını da düşünürdü. Zənnimcə, indi mətləbə gəlmək olar. Sabir artıq o evi tikib. "Söz ömrü" kitabı ilə... "Söz ömrü" kitabında oxuculara təqdim etdiyi "Söz ömrü" avtobioqrafik (memuar) romanı ilə... Onsuz da Mədaini - bir vaxt həşəmətli Mədain sarayını zaman küləklərə sovursa da Xaqaninin məşhur əsəri ilə təzədən tikildi. Baxmayaraq ki, adı "Mədain xərabələri" kimi düşüncələrdə yaşamalı oldu. Sabir Şirvan "Söz ömrü" avtobioqrafik əsəri ilə dağılmış Xələflinin yaddaşlarda yaşaya biləcək gücdə obrazını özünün söz ömründə ruhundan keçirib varlığında ona təzədən don biçib və elə söz donunda da zamanımıza qaytarıb. "Söz ömrü" kimi əsərlərin dəyəri çox yüksəkdir. Belə əsərlər yaddaşı oyatmaq sarıdan möcüzəvi təsir gücünə malikdir. Sabirin səhifə-səhifə sürətlə çevirdiyim vərəqlərə hopmuş duyğularını mənzərə-mənzərə gözlərimdən keçirirəm. Burada təkcə qaçqınlıq istirabları, didərginlik ağrı-acıları yoxdur, həm də qayğısız uşaqlıq illərinin insanlığa gəl-gəl deyən çağları da şairin nəsr dili ilə gəl-gəl deyir".* Zənnimcə, burada şairin öz yurdu ilə görüş səhnəsi kitaba ön söz yazan Əli Rza Xələfli tərəfindən kifayət qədər canlılığı ilə açıqlanıb. *"Söz ömrü"* kitabının müəllifinin təbiətini bu təsvirlərdə qədərincə duymaq olar. Zənnimcə, şair elə bu cür acınacaqlı mənzərələrlə qarşılaşmalı idi, yoxsa heç şair olmazdı.

***(Davamı 11-ci səhifədə)***

# SABİR ŞİRVANIN "SÖZ ÖMRÜ"

***(Əvvəli 10-cu səhifədə)***

Sabir Şirvanın bütün şeirlərində və eləcə də bu kitabda əksini tapmış avtobioqrafik romanında onun özünü bütün aydınlığı ilə görmək mümkündür. Amma kitaba "Ön söz" yazan müəllifin bir para qeydləri də var ki, sanki elə mənim düşündüyüm kimi qələmə alınıb: *"Açığı, boynuma alıram, səhifələri həyəcanla çevirirəm. Sabir ata yurdunu, doğulub-böyüdüyü elatın iç dünyasını yazır. Mən də həmin məqamların, həmin zamanın yaddaşımda çağlarına dönürəm. Əslində əsər oxucunun ruhunu səfərbər etmirsə, onun yaddaşını oyatmırsa, demək, müəllif gücsüz olub. Müəllif kotanı – xışı dərininəcən işlədə bilməyib. Amma Sabirin rəvan, təmkinli, bəlkə bir qədər də sakit axan çay ləngəri ilə nəsrinin içincə yeriyən duyğuları sözlərinin cazibəsinə düşdükcə hiss edirəm. Və özüm də xaraba qalmış evimizin qabağınacan gedirəm. Qısa görüntülü video-yaddaşdan evimizin xarabalıqları arasında, lap elə mənim kitabxanamın içində bitmiş qoz ağacını, yemişəni təzədən gözlərimlə öpürəm. Bəs əsər necə olur? Bəs bədii əsərin gücü hansı meyarla ölçülür? Düşünürəm ki, Sabir qələmi götürəndə, yazını başlayanda, bəlkə heç, nə yazacağını da bilməyib, amma onu ağ kağız üzərində qaralan sətirlər karvan yoluna bənzər yaddaşın ən sərt keçilməzliklərindən ötürmək gücündə olub. Sabirin bu əsərdəki uğurunu şərtləndirən bir əsas keyfiyyət var: yaddaşa xəyanət etməmək, xatirələrinin içərisindən boy göstərən obrazlara səmimi münasibət... Əsər, şübhəsiz, müəllifin böyük zəhməti bahasına başa gəlib. Deyə bilmərəm, bu əsər nə qədər vaxta, hansı müddətə yazılıb. Amma onu deyə bilərəm ki, Sabir bu əsəri başlayandan qurtarana kimi ondan ayrılmayıb. Sevinci də, kədəri də, hətta həyatının mənası da bu əsərin motivləri üzərində cəmlənib".* Daha nə deyim? Elə düşünürəm ki, oxucu da məni yaxşı başa düşər. Çünki "Ön söz" müəllifi əsəri qədərincə oxuyub, başa düşüb və başa düşdüklərini də oxucuları ilə bölüşməyə çalışıb.

Bu qeydlərdə və eləcə də kitab boyu yazılanlarda bir həqiqət ifadə olunub. Sabir Şirvan yaradıcı ziyalı olaraq öz ağrılarını qələmə alıb. Yoxsa başqa cür heç "Ön söz" müəllifinin də qeydləri məni tərpədə bilməzdi. Yəni başqa oxucuları da tərpədə bilməzdi.

Müəllif, yəni Sabir Şirvan kifayət qədər püxtələşmiş, söz ömrü yaşamış bir sənətkardır. Mən çox razı qaldım ki, Əli Rza Xələfli onu püxtələşmiş bir sənətkar kimi oxucuya təqdim etmək meyilini öz yazısında axıra qədər saxlayır.

Sabir Şirvan Cəbrayılın Xələfli kəndindəndir. Ancaq bu kitab göstərir ki, həmin kənd xarabalıqlardan ibarət olsa da, şairin düşüncəsində bu kənd kifayət qədər diridir və yaşarıdır. Hətta bu kəndin keçmişi ilə bağlı məqamları Sabir Şirvanın yaradıcılıq düşüncəsindən, ədəbi publisistikasından da görmək olar.

Sabir Şirvan avtobioqrafik romanından aldığım təəssüratla deyərdim ki, kifayət qədər prinsipial, əqidəli bir ziyalıdır. Yaradıcılığı da məhz bu istiqamətdə köklənib. O, öz kəndinin gələcəyini nə qədər düşünürsə, keçmişini bir o qədər yaddan çıxarmır.

Sabir Şirvanın kəndi Cəbrayıl rayonunu Xələfli adı ilə tanınan yaşayış məskənidir. O, öz kəndinin tarixi keçmişini arxiv sənədləri əsasında araşdırıb, hətta bu keçmişə əsər də həsr edib. Açığı, Sabir Şirvanın həmin əsəri mənim əlimə çatmayıb, ancaq "Söz ömrü" kitabına yazılan "Ön söz"dən belə başa düşürəm ki, Sabir həm də publisistikada kifayət qədər kəsərli qələm sahibidir. Sözümə təsdiq üçün "Söz ömrü" kitabına yazılan "Ön söz"dən bəzi parçalara yenə də diqqəti cəlb etmək istərdim: *"Əsər bir neçə janrın qovuşması, calağı, hətta bəzən mövzuların sərt dönəmləri ilə hədlənən ayrılıqlarla başa gəlib. Yaddaş təlqini ilə yazılan əsərlərin əsas dəyərlərindən biri də nəsil, kök, soyağacına münasibətdir. Sabir Şirvan "Söz ömrü" əsərində nəsil ağacının mümkün köklərinə qədər gedir. Ancaq daha çox budaqları zamanın gərdişi ilə gələn küləklərdə sovrulmayan, tarixin yaddaşında iz qoyan adları, ünvanları da yazısı ilə yenidən dirildir. Bir anlığa belə düşünürəm: İndi Xələfli yoxdur, ümid edirik gələcəkdə olacaq. Xələflinin böyük oymaqlarından biri - Şirvalı da yoxdur, inamımız var yenə olacaq. Axı həmin adamlar - o yeri-yurdu qurub-tikmiş, bizi o yerdə, yurdda böyütmüş insanlar daha yoxdur. Bax o zaman "Söz ömrü" kimi əsərlərin dəyəri öz gücünü göstərəcək. "Söz ömrü" əsəri Sabir Şirvanın "Eyvatlıdan Xələfliyədək" (Yusif Dirili ilə birgə) kitabından sonra*




*gələcəyə ünvanlanmış çox dəyərli yazıçı məktubudur. Şair Sabir Şirvanın "Söz ömrü" əsəri, mən bilən, onun ilk nəsr əsəridir. İlk olmasına baxmayaraq, zənnimcə, uğurlu əsəridir. Bütün yazıçılar üçün əsas meyar özünü yaza bilmək gücüdür. Bu gün ulu Nizaminin məşhur "Xəmsə"sində də tarixi taleyimiz üçün ən dəyərli məqamları onun özünü yazdığı hissələrdə görə bilirik. Nizami özünü yazdığı məqamlarda mənsub olduğu etnosun, vətənin, yurdun, tarixinə güzgü tutur. Sabir Şirvan da bu əsərində özünü yazdığı üçün tarixə şahidlik missiyası daşıyır. Yazıçı özünü yazdığı məqamda həmişə cəmiyyətdən daha yuxarıda dayanır. O, toplumu yaddaşın həqiqətlərinə doğru çağırır. Axı, özünü yazıb. Özü isə danıla bilməz. Tarixin övladıdır, zamanın yetirməsidir. Əsər necə böyüyürsə, Sabir Şirvanın özünün mənəvi boy atımını da əsər boyu hiss edirik. Onun hansı kökdən gəldiyini, hansı boydan su içdiyini, tapındığı mənəvi dəyərlərin hansı meyarlara əsaslandığını öz həyatının təsviri ilə oxucusuna göstərə bilir və biz də elə onu bu yöndə görürük".* Bu qeydlər çox şey deyir. Həyat haqqında, cəmiyyət haqqında, tarixə şahidlik missiyası haqqında, öz kəndinin keçmişi haqqında... daha nələr, nələr... haqqında bu qeydlərdən məlumat almaq olar.

Doğrudur, "Söz ömrü" kitabından danışanda yəqin ki, gələcəkdə də tənqidçilər və publisistlər Sabir Şirvanı nasir kimi, publisist kimi xarakterizə edəcək. Ancaq axı Sabir Şirvan bu kitabına qədər həm də şair kimi tanınıb. Onun zəngin yaradıcılıq yolu öz müasirləri tərəfindən də yüksək qiymətləndirilib.

Düşünürəm ki, bu yerdə Sabiri yaxşı tanıyan, onun kimliyini qədərincə qiymətləndirən və elə "Söz ömrü"kitabında mövqelərini təsdiq edən müəlliflərin düşüncələrinə də yer verim.

"Kredo" qəzetində Sabir Şirvanın "Söz ömrü" kitabında verilmiş qeydləri də diqqətlə nəzərdən keçirdim. Hiss etdim ki, kitab xüsusi maraq dairəsində olub. Əli Rza Xələflinin Sabir Şirvan yaradıcılığına diqqətinin bir təzahürü kimi qəzetdə yer almış mətnlərə də yer verməyi özümə borc bildim: *"Tanınmış şair-publisist Malik Əhmədoğlu da Sabir Şirvan yaradıcılığını yaxşı bildiyi kimi onun özünə, şəxsi təbiətinə də dərindən bələddir. Ədəbi mühitdə həmişə onları bir yerdə görmək olar. Bu da imkan verir ki, uzun illərin qələm dostu kimi bir-birinin yaradıcılığını, sənətini qədərincə qiymətləndirə bilsinlər. Malik Əhmədoğlu Sabir Şirvan haqqında yazır: "Sabir Şirvan yaradıcılığında nəsr əsərlərinin, xüsusilə, publisistikanın olması məni çox sevindirdi, həm də maraqlı gəldi. Doğrusu, şairin nəsrə bu qədər önəm verəcəyi mənim ağlıma gəlməzdi. Onun Jurnalistlər Birliyinin üzvü, şair-publisist, Dirili Qurbani Məclisinin rəhbəri Yusif Dirilinin həmmüəllifliyi ilə yazıb çap etdirdikləri "Eyvatlıdan Xələfliyədək" kitabı böyük uğurlara imza atmış oldu. Sabir Şirvanın bu kitabı həqiqətən gözəl bir nəsr əsəridir desək, yanılmarıq. Az vaxtda bu kitab özünə xeyli sayda oxucu rəğbəti qazandırdı, çoxlarının sevincinə səbəb oldu. Məncə, bu kitab müəlliflərin nəsillərinin salnaməsini ortaya qoyduğu üçün qiymətli və önəmli kitabdır. Neçə əsrlər keçəcək, lakin bu kitab yeni nəsillər üçün keçmişlə gələcək arasında körpü rolunu oynayacaq. Əvəzsiz zəhmətin məhsulu olan bu kitabları yazan əziz dostuma uğurlar arzulayıram! Sabir Şirvanın yaradıcılığı özündən sonra gələn nəsillər üçün sanki bir bünövrə, təməl rolunu oynayır desəm, yanılmaram. Bundan sonra qələmi daha şeirlərə həyat versin. Hər zaman bizi uğurları ilə sevindirəcəyi günlərdə görüşək. Sözünün günəşi daima işıqlı olsun. Heç zaman buludlar arxasında qalmasın...".* Nə qədər poetik düşüncələrdir. Oxucunu qanadlandıran düüncələrdir. Elə düşüncələrdir ki, həm bu sözlərin müəllifini axtarmaq istəyirsən, həm də Sabir Şivanın özü ilə təzədən görüşmək istəyirsən. Bu yerdə təəssüf edirəm. Malik Əhmədoğlunu - bu qeydlərdən də gördüyüm, mətbuatdan da tanıdığım bu şairi qədərincə təbii qəbul etdim. Təəssüf etdim ki, indiyə qədər bizdə kitabı çap olunmayıb.

İsmayıl İmanzadə Azərbaycanın kifayət qədər məşhur şairidir, "Kredo"-dan aldığım məlumatlara görə o Mingəçevirdə yaşayır. Çox istərdim ki, onun da bir kitabını çap edim. Əli Rza Xələflinin Sabir Şirvan yaradıcılığına münasibətini İsmayıl İmanzadənin düşüncəsində görmək mənim üçün çox dəyərli oldu. "Kredo" qəzetində "Söz ömrü" kitabı ilə bağlı qeydlərdə mən sanki İsmayıl İmanzadənin özünü gördüm: *"Deyirlər peyğəmbərlərdən sonra Allaha ən yaxın olan zümrə şairlərdir. Əlbəttə, söhbət iddiaları özlərindən böyük olan, cızmaqaraları ilə elə bil insanların ədəbi zövqünü korlamağı özlərinə borc bilən və sosial şəbəkələrdə meydan sulayan qrafomanlardan yox, ədəbi aləmi zənginləşdirmək arzusunda olan əsl istedad sahiblərindən gedir. Məhz bu prizmadan yanaşanda, Sabir Şirvanın rəvan təbli-istedadlı söz adamı olduğunu elə bəri başdan əminlik hissiylə söyləyə bilərəm. Nə qədər təəccüblü olsa da, deyəcəm, - Sabir Şirvanı tanıyana qədər onun Şirvan mahalına məxsus qələm sahibi olduğunu zənn etmişəm. Ancaq sonradan bilmişəm ki, rayonumuzun ən gözəgəlimli kəndlərindən olan Xələflidə dünyaya göz açıb. Xələfli Cəbrayılın iri yaşayış məntəqələri ilə müqayisədə bir az kiçik görünsə də, öz yetirmələri ilə haqlı olaraq fəxr edə bilər. Ən azından görkəmli elm adamları və ədəbi aləmdə kifayət qədər tanınan Əli Rza Xələfli, Əjdər Yunus və Sabir Şirvan... kimi şairləri ilə".* Zənnimcə, bu qeydlər bəs edir ki, Sabir Şirvanı yetirən mənəvi mühitlə qədərincə tanış olaq. O, dövrünün sənətkarları ilə kifayət qədər sıx ədəbi münasibətdədir və bu məni sevindirir.

Mən istəyirəm ki, bu qeydlərimdə Sabir Şirvan haqqında kifayət qədər dolğun məlumat verim, amma bu məlumat onun mənəvi mühitini qədərincə göstərmirsə, mütləq yarımçıq olacaq. Əlbəttə, hər bir yazı müəllifi istəyir ki, oxucu razı salsın. Bu mənada mən Əli Rza Xələflinin "Kredo" qəzetində dərc olunmuş yazısından bəzi məqamlara diqqəti bir daha çəkmək istərdim: *"Qarabağın işğaldan azad olunması təkcə ərazi, maddi itkilərin bərpası məsələsi deyil, bu, həm də milli qürur məsələsidir. Azərbaycanın dünyaya səpələnmiş övladları müasir dünya düzənində Qarabağın qara bir ləkə olduğunu mənəvi yara kimi varlıqlarında daşıyırdılar. Qarabağ Azərbaycanın mənəvi mühitinin ən üstün göstəricisi idi. Bu mənada Qarabağın hər bir kəndi, hər bir şəhəri də yaddaş baxımından xüsusi tarixi əhəmiyyət kəsb edir. Bizim Xələfli də bu sıradan istisna deyil. Onu da deyim ki, Xələfli kəndindən boy göstərib dünyanın ayrı-ayrı şəhərlərində taleyinə yaşamaq qisməti düşmüş adamlar az deyil. Kiyevdə, Sankt-Peterburqda, Moskvada, Türkiyədə... Xələfli adını yaşatmaqla ev-bina etmiş, soy kök əsası qoymuş xələflilər öz doğmaları ilə əlaqələrini bu gün də kəsmirlər. Onu da deyim ki, Amerikada iş adamı kimi fəaliyyət göstərən Xaqani İmanov mənim özümlə də sıx əlaqə saxlayır. Ancaq elm və sənət adamları Azərbaycanı, Qarabağı, bizim Cəbrayılı və əlbəttə ki, həm də Xələfli kəndini təmsil edirsə, bu ikiqat baş ucalığıdır.* Mənəvi diriliyi qorumaq, əslində, kimliyini hifz etməkdir.

Məlumdur ki, erməni diasporu harada məskunlaşırsa, orada da bir milli ocaq yaradır. Əslində, Birinci Qarabağ müharibəsinin bizim üçün acınacaqlı qurtarmasının əsas güc mənbəyi erməni diasporunun mərkəz yaratdıqları ölkələrdən Ermənistana dəstək verilməsi idi. Zənnimcə, Sabir Şirvanın təmsil etdiyi Xələfli kəndinin dünyanın müxtəlif ölkələrində məskunlaşan sakinləri Azərbaycan ocaqlarının yaradılması üçün böyük xidmət göstərə bilərlər. S.Şirvan öz əsərində onların haqqında danışır, məlumat verir. Bununla da onlara xatırladır ki, dünyanın harasında olmağımızın fərqi yoxdur. Siz unutmayın ki, Azərbaycandansınız, azərbaycanlısınız. Kökünüzlə, soyunuzla bu torpağa bağlısınız.

***(Davamı var)***